# QƏRAR № 11/60

# 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2025-ci il tarixli 47 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlu 2025-ci il fevralın 11-də Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək seçkilərdə qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bunanla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112.1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin onu təqdim edmiş şəxsə geri qaytarılması barədə rəy vermişdir.

Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci və 112.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlunun 11 fevral 2025-ci il tarixli 47 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Katib** | **Mikayıl Rəhimov** |

*12.02.2025*

Azərbaycan. - 2025.- 13 fevral (№ 32).- S.12.